# Qarabağda yeni dövr başladı

## Mərkəzi hakimiyyət Qarabağda yaşayan erməni vətəndaşlarımızın ehtiyacını təmin edir

**Azərbaycan dövləti ərazilərində yaşayan ermənəsilli əhalinin müqəddəratını düşünür. Bunu Azərbaycan Ordusu Qarabağda lokal xarakterli antiterror əməliyyatı aparmaq məcburiyyətində qalarkən də, sonrakı günlərdə də bütün dünya bir daha gördü.**




Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ehtiyaclarının təmin olunması üçün humanitar yardım göstərilir. Sentyabrın 22-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən içərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və çörək dolu 2 avtomobil Ağdam-Xankəndi yolu ilə ünvanına çatdırıldı. Bundan sonra da humanitar məqsədli yüklərin göndərilməsi təmin ediləcək.

Prezident İlham Əliyev çıxışlarında bəyan etmişdi ki, Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Dövlət başçısı bildirirdi ki, bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar: "Hər halda əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır".

Vətən müharibəsi bitəndən sonra da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrin və kriminal xunta rejimini təmsil edən qüvvələrin davam etdirdikləri özbaşnalıqlara, terror əməllərinə son qoymaq məqsədilə həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı zamanı mülki əhalinin təhlükəsizliyinin qorunmasına, ərzaq, tibbi vəsait təminatlarına diqqətlə, həssaslıqla yanaşıldı. Aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisinin zərbə altına düşməmələri və mülki əhalinin qorunmalı olduğu barədə əvvəlcədən Prezident İlham Əliyev tərəfindən hərbi birləşmələrimizə ciddi tapşırıq verilmişdi. Dövlət başçısı sentyabrın 20-də xalqa müraciətində diqqətə çatdırdı ki, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etdilər: "Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

Bölgədə aparılan qısamüddətli lokal xarakterli antiterror tədbirlərində Azərbaycan Ordusunun qələbəsi haqqın, ədalətin zəfəridir. Azərbaycan öz suverenliyini tam bərpa etdi. Bu qələbə həm də Xankəndi və ətraf ərazilərdə yaşayan ermənəsilli əhalini kriminal xunta rejimindən xilas etdi. Prezident İlham Əliyev sözügedən müraciətində bir daha vurğuladı ki, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır, sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi: "Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır".

Prezident İlham Əliyev bildirdi ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür, çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər.

Separatçı rejim Xankəndi və ətraf ərazilərdə yaşayan ermənəsilli əhalinin Azərbaycana reinteqrasiya olunmasına imkan vermirdi, onları həmişə qorxu və təzyiq altında saxlayırdı. Baş verən son hadisələr reinteqrasiya prosesinin sürətlənməsi üçün də ciddi şərait yaratdı. Hadisələrin gedişi ümidverici gələcəkdən xəbər verir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 24 sentyabr.- S.5.